Qurban bayramınız mübarək!

28/29 (1179) • 15-28 iyul 2021-ci il

İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

"AZƏRBAYCANIN ŞANLI QƏLƏBƏSİ BEYNƏLXALQ HÜQUQUN, ƏDALƏTİN VƏ QOŞULMAMA HƏRƏKATI DƏYƏRLƏRİNİN TƏNTƏNƏSİDİR"

Bu sözləri Prezident İlham Əliyev iyulun 13-də Qoşulmama Hərəkatının xarici işlər nazirlərinin onlayn formatda aralıq konfransında çıxış edərkən deyib.

O, bildirib: - Bu il biz BMT Baş Assambleyasından sonra ikinci ən böyük siyasi təsisat olan Hərəkatımızın yaradılmasının 60 illiyini qeyd edirik. Qoşulmama Hərəkatının təməlində sülh, multilateralizm və qlobal həmrəyliyin möhkəmləndirilməsi dayandığından, mürəkkəb qlobal çətinliklər Hərəkatımızın əhəmiyyətini daha da artırıb.

Bütün ölkələrin suverenliyinə və ərazi bütövlüyünə hörmət, habelə ölkələrin daxili işlərinə qarışmamaq və digər prinsipləri təşviq edən tarixi "Bandunq prinsipləri" Azərbaycanın xarici siyasətinin prioritetləri ilə tam uyğundur. Bu səbəbdən 10 il əvvəl Azərbaycan Qoşulmama Hərəkatı ailəsinin üzvü oldu. Qısa müddət ərzində ölkəmiz Hərəkatda olduqca böyük nüfuz və etimad qazandı. 2016-cı ildə bütün üzv dövlətlərin yekdil qərarı ilə 2019-2022-ci illər üçün Qoşulmama Hərəkatına sədrlik bizə həvalə edildi.

2019-cu ilin oktyabr ayında Azərbaycan Bakıda Qoşulmama Hərəkatının XVIII Zirvə görüşünü uğurla təşkil etdi və biz sədrliyi öz üzərimizə götürdük. Zirvə görüşündəki çıxışımda vurğulamışdım ki, Azərbaycan beynəlxalq müstəvidə Qoşulmama Hərəkatı ölkələrinin legitim maraqlarının müdafiəsi, ədalət və beynəlxalq hüququn qorunması naminə əməli addımlar atacaq.

Azərbaycan özünün sədrliyi dövrü üçün müfəssəl və ambisiyalı fəaliyyət planı qəbul etmişdi. Təəssüf ki, COVID-19 pandemiyası dünyanı bürüdü, yeni reallıqlar və çətinliklər yaratdı. Lakin biz yeni vəziyyətə çevik və adekvat reaksiya verə bildik.

Bu baxımdan, Qoşulmama Hərəkatının sədri qismində Azərbaycan pandemiyaya qarşı qlobal səylərin səfərbər edilməsi üçün bir sıra beynəlxalq təşəbbüslərlə çıxış edib. Biz Qoşulmama Hərəkatının Təmas Qrupu ölkələrinin Zirvə görüşünün keçirilməsi təşəbbüsünü irəli sürdük və 2020-ci il mayın 4-də həmin tədbiri təşkil etdik. Təmas Qrupunun dünyanın müxtəlif regionlarını təmsil edən üzvləri ilə yanaşı, onlayn Zirvə görüşündə BMT-nin Baş katibi, BMT Baş Assambleyasının sədri, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru, Afrika İttifaqı Komissiyasının sədri, Avropa İttifaqının Ali nümayəndəsi və Avropa Komissiyasının vitse-prezidenti də iştirak etdilər.

Azərbaycan pandemiya ilə mübarizə sahəsində Qoşulmama Hərəkatı ölkələri də daxil olmaqla, 30-dan çox ölkəyə humanitar və maliyyə yardımı edib. Bununla yanaşı, Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə töhfəsi edib ki, bunun da yarısı Qoşulmama Hərəkatının üzv dövlətləri üçün nəzərdə tutulub.

Qoşulmama Hərəkatının Bakı Zirvə görüşündə aldığı mandata əsasən, Azərbaycan sədr qismində təşkilat üzrə gənclərin institusional şəbəkəsinin yaradılmasının mümkünlüyünü nəzərdən keçirir.

Azərbaycan Qoşulmama Hərəkatının vahid səsini ucaldaraq, Hərəkatın maraqlarını bütün mümkün beynəlxalq platformalarda müdafiə etmişdir. Azərbaycan Qoşulmama Hərəkatı çərçivəsində həmrəyliyin artırılması, beynəlxalq arenada Hərəkatın mövqeyinin və nüfuzunun gücləndirilməsi sahəsində birgə səylər göstərməkdə davam edəcək. 2020-ci il Azərbaycan üçün əlamətdar il olub, çünki Hərəkatın gündəliyində dayanan vacib mövzulardan biri uğurla həll edilib.

1993-cü ildə BMT Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul edib. Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı və ATƏT daxil olmaqla, bir sıra nüfuzlu beynəlxalq təşkilatlar da buna bənzər qərar və qətnamələr qəbul edib. Lakin Ermənistan aparıcı beynəlxalq təşkilatların tələblərinə məhəl qoymayıb. Beləliklə, Ermənistanın yeganə məqsədi status-kvonun saxlanılmasından və işğalın möhkəmləndirilməsindən ibarət olub.

Ötən ilin sentyabrında Ermənistan Azərbaycana qarşı irimiqyaslı hərbi hücuma keçdi. Bu təcavüzə cavab olaraq, Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı və işğal altındakı ərazilərin böyük hissəsini azad etdi.

Beləliklə, Azərbaycan 30 illik münaqişəyə son qoydu, hərbi-siyasi yollarla özünün ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi. Dağlıq Qarabağ münaqişəsi tarixə qovuşdu.

2020-ci ilin iyulunda Qoşulmama Hərəkatı Ermənistan silahlı qüvvələrinin dövlət sərhədində törətdiyi hərbi təxribatla bağlı kommünike qəbul edib. Bundan əlavə, Vətən müharibəsi zamanı - 2020-ci ilin oktyabrında nazirlər səviyyəsində keçirilən onlayn iclas çərçivəsində xüsusi bəyanat qəbul olunub. Bu sənədlərdə Qoşulmama Hərəkatı ölkələri Azərbaycanın ədalətli mövqeyini dəstəkləyib və ərazi bütövlüyünün bərpasına yönəlmiş səylərinə dair Azərbaycanla həmrəyliyini ifadə edib.

Biz azad olunmuş ərazilərdə yenidənqurma işlərinə artıq başlamışıq. Orada müasir şəhərsalma planlaşdırılması həyata keçirilir. Azad edilmiş ərazilər yaşıl enerji zonası olacaq.

Digər məsələlərlə yanaşı, yüz minlərlə məcburi köçkünün doğma yurdlarına l qayıdışı əsas prioritetimizdir.

Lakin əsas çətinlik Ermənistan tərəfindən basdırılmış çoxsaylı minalardır. 2020-ci il noyabrın 10-da Ermənistan tərəfindən kapitulyasiya aktının imzalanmasından sonra mina partlaması nəticəsində 30-a yaxın Azərbaycan vətəndaşı həlak olub, 100 nəfərdən çox insan isə yaralanıb. Minalar azad olunmuş ərazilərdə yenidənqurma prosesini və məcburi köçkünlərin evlərinə qayıdışını ləngidir.

Sonda sizi bir daha əmin etmək istəyirəm ki, Azərbaycan Qoşulmama Hərəkatının beynəlxalq nüfuzunun artırılmasına töhfə verilməsi, Hərəkat çərçivəsində həmrəyliyin gücləndirilməsi, ədalət və beynəlxalq hüququn müdafiəsi sahəsində əlindən gələni əsirgəməyəcək.

ABŞERONDA DOST MƏRKƏZİNİN AÇILIŞI OLUB

İyulun 14-də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin Abşeron DOST Mərkəzinin açılışı olub.

Xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

PASHA Bank

Azərbaycan xalqını Qurban bayramı münasibəti ilə təbrik edir!

Ukraynalı jurnalist: Şuşa, həqiqətən də Qarabağın incisidir

Şuşa Qarabağın əsl incisidir və Azərbaycanın onun bərpasına göstərdiyi və hələ göstəriləcək bütün səylərə layiqdir. Şəhərin yenidən qurulacağı və yerli sakinlərin oraya qayıdacağı zaman bu şəhərə qayıtmaq çox istərdim. İnanıram ki, bu, tezliklə baş verəcək.

Bu sözləri Şuşanı ziyarət edən Ukraynanın "Kanal 5" telekanalının müxbiri Yevgeniya Kitayeva bildirib.

O qeyd edib ki, şəhərin bərpası üçün Azərbaycanın, əlbəttə ki, iddialı planları var: "Biz hələ hərbi əməliyyatların ilk günlərində sentyabr ayının sonunda işgüzar səfərə gələndə, mən insanlardan "Biz Şuşa şəhərini qaytarmalıyıq" cümləsini çox eşidirdim. O zaman mən bu şəhərin azərbaycanlılar üçün hansı məna kəsb etdiyini hələ tam anlamırdım, amma onsuz da jurnalist marağım mənə rahatlıq vermirdi. Mən Şuşa haqqında çox oxumağa başladım. 44 günlük müharibə bitdikdə və şəhərin artıq Azərbaycanın nəzarətində olduğu məlum olduqda, həqiqətən oraya getmək və hər şeyi öz gözlərimlə görməyi çox istəyirdim. Fevral ayında Prezident İlham Əliyev mətbuat nümayəndələri ilə görüşəndə mən özümü saxlaya bilmədim və ondan jurnalistlər üçün Şuşaya səfərlə əlaqədar soruşdum. O, söz verdi. İyul ayının əvvəlində mən orda oldum. Dağıntılara baxmayaraq, şəhər çox gözəldir", - deyə Yevgeniya Kitayeva bildirib.

Ukraynalı jurnalist orada çox sayda memarlıq və tarixi abidənin olduğunu vurğulayıb. "Biz şəhərdə hər şeyi mümkün qədər tez bərpa etməyə çalışan hərbçiləri və inşaatçıları gördük. Ancaq həqiqətən orada çox iş var. 28 illik işğaldan sonra binaların əksəriyyəti dağıdılıb. Biz Şuşada olduğumuz zaman mən düşünürdüm ki, bir çox Şuşa sakini buraya gəlməyi xəyal edir, mən isə artıq bu küçələr boyu gəzirəm", - deyə o əlavə edib.

İndiyədək sənaye zonalarında 4,2 milyard manatlıq məhsul istehsal olunub

Qeyri-neft sektorunun inkişafında əlverişli mexanizm olan sənaye zonalarında 2021-ci ilin birinci yarısında 824 milyon manatlıq - ötən ilin eyni dövrü ilə müqayisədə 38 faiz çox məhsul istehsal edilib, 268 milyon manatlıq ixrac həyata keçirilib.

Bu barədə İqtisadiyyat naziri Mikayıl Cabbarov deyib.

Nazir qeyd edib ki, ümumilikdə, indiyədək sənaye zonalarında 4,2 milyard manatlıq məhsul istehsal olunub ki, bunun da 1,1 milyard manatlıq hissəsi ixrac edilib.

"Komsomolskaya Pravda": "İndi bu şəhər fəlakət baş vermiş apokalipsis haqqında film çəkmək üçün çox münasibdir"...

"Komsomolskaya Pravda" qəzetinin müxbiri Valentin Alfimov Azərbaycanın işğaldan azad edilmiş torpaqları haqqında reportaj hazırlayıb.

Rusiyalı jurnalist yazır: **Bakı aeroportunda ilk növbədə "Qarabağ Azərbaycandır"** sözləri yazılmış banner diqqətimi cəlb etdi. Aeroportdan çıxanda, şəhərə gedən yolboyu avtobus dayancaqlarında və paytaxtın mərkəzində iki binadan birinin və beş maşından birinin üzərində də eyni sözləri gördüm. Azərbaycanlılar özləri Qarabağ müharibəsini Vətən müharibəsi adlandırırlar. Azərbaycan Resoublikası Prezident Administrasiyasının əməkdaşı Fuad Axundov bu faktı belə izah etdi:

"Böyük Vətən müharibəsində almanlar Sovet İttifaqı ərazisinin 9 faizini, bizdə isə ermənilər Azərbaycan ərazisinin 20 faizini tutmuşdu. Biz bu müharibəni başqa cür adlandıra bilərikmi?"

Məqalə müəllifi daha sonra yazır: Mən Qarabağa cənub tərəfdən daxil oldum. Birinci məntəqə Füzuli şəhəri idi. Yerli sakinlər bu ərazini "Aran Qarabağ" adlandırırlar. Doğrudan da, burada tarlaların ucu-bucağı görünmür.

Hər iki kilometrdən bir tank əleyhinə böyük xəndək, xəndəyin o tayında bir-birinin ardınca 6 və ya 7 cərgə torpaq səngər, daha sonra minalanmış sahələr gəlir. Yollar boyunca yerləşdirilmiş xəbərdarlıq lövhələrində

əyani şəkildə göstərilir ki, şose yolundan bircə santimetr belə kənara çıxmaq olmaz – hər tərəf minalanıb. Hətta maşınların döndərilməsi üçün xüsusi "ciblər" düzəldilib. Allah eləməsin ki, yolun əsas hissəsində belə zərurət yaransın.

İndi bu şəhər fəlakət baş vermiş apokalipsis haqqında film çəkmək üçün çox münasibdir. Vaxtı ilə Qafqazın mənzərəli bu guşəsində yerləşən gözəl şəhər indi bu vəziyyətdədir. Azərbaycan Ordusunun vuruşa-vuruşa irəliləyərək Gəncə tərəfdə yerləşən aşırımı nəzarətə götürməsi məlum olan kimi, yerli ermənilər buranı tərk ediblər. Onlar ev heyvanlarını özləri ilə götürüb, sonra isə bütün evləri, hətta talvarları da yandırıblar.

Azərbaycan Ordusunun özünə qaytardığı şəhərlərdən biri də Hadrutdur. İndi burada dağıdılmış evləri bərpa etmək üçün inşaat materialları daşıyan yük maşınlarının keçdiyi yollar qalın toz təbəqəsi ilə örtülüb.

Şuşada isə "Əsrin tikintisi" aparılır. Şuşa Azərbaycanın mədəni paytaxtı elan edilib. Ümumiyyətlə, Qarabağda möhtəşəm tikinti işləri aparılır. Azərbaycan hökumətinin planlarına görə, burada iki aeroport və 6 zolaqlı avtoban tikiləcək. Ərazilər hələ minalardan tam təmizlənməyib, ona görə də burada təqribən 5 il gərgin iş aparılandan sonra rahat gəzmək mümkün olacaq.

İki il ərzində regionun tam bərpa olunacağı və sakinlərin oraya qaytarılacağı vəd edilir. 1990-cı illərin əvvəlində ailələri bu yerləri tərk etmiş 1 milyona yaxın insan oraya qayıtmağa hazır olduqlarını bildirib. Bundan əlavə, daha yarım milyon azərbaycanlı dağlar qoynunda salınacaq yeni "ağıllı kəndlərə" köçməyə hazırdır.



Qəhrəmanlıq tariximizdən səhifələr: Tovuz döyüşləri

Tovuz döyüşlərindən 1 il ötür. 2020-ci il iyulun 12-də günorta saatlarından başlayaraq, Ermənistan silahlı qüvvələrinin bölmələri Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində atəşkəs rejimini kobud şəkildə pozaraq mövqelərimizi ələ keçirmək məqsədilə hücuma keçməyə cəhd göstərib. Düşmən əvvəlcə yüngül atıcı silahlardan, 60, 82, 120 millimetrlik minaatanlar və daha iriçaplı digər ağır artilleriya qurğularından istifadə etməklə mövqelərimizi və sərhədboyu bir sıra yaşayış məntəqələrimizi (Ağdam, Dondar Quşçu, Əlibəyli, Vahidli, Yuxarı Öysüzlü və Aşağı Öysüzlü) atəşə tutub.

Dövlət sərhədində düşmənin törətdiyi təxribatın qarşısının alınması ilə bağlı görülən təxirəsalınmaz tədbirlər nəticəsində hücumun qarşısı alındı. Ermənistan silahlı qüvvələrinin ön xəttindəki atəş nöqtələri, dayaq məntəqələri, artilleriya qurğuları, müxtəlif təyinatlı hərbi obyektlər, döyüş texnikası və yüzədək canlı qüvvəsi məhv edildi.

2016-cı ilin Aprel döyüşlərində olduğu kimi, bu dəfə də Ermənistanın hərbi-siyasi rəhbərliyi hərbi məlumatların yayılmasına tətbiq edilən qadağanı əsas gətirərək döyüş itkilərini ictimaiyyətdən gizlətmişdi.

Düşmən hücumunun qarşısını alarkən Azərbaycan Ordusunun 12 hərbi qulluqçusu, general-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev, mayor Namiq Əhmədov, mayor Anar Novruzov, baş leytenant Rəşad Mahmudov, gizir İlqar Zeynallı, gizir Yaşar Babayev, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları əsgər Elçin Mustafazadə, Nazim İsmayılov, Xəyyam Daşdəmirov, çavuş Vüqar Sadıqov, baş əsgər Elşad Məmmədov şəhid olub. Ermənistan ordusundakı vəziyyətdən fərqli olaraq qürurverici haldır ki, general və zabitlərimiz əsgərlərlə bir sırada, ön xətdə döyüşürdülər. Hərbi qulluqçularımız düşmənlə sonadək mübarizə aparıb və Azərbaycan bir qarış da olsun torpağını itirməyib.

Allah şəhidlərimizə rəhmət etsin!

Asiya İnkişaf Bankı azad olunmuş ərazilərdə "yaşıl enerji"dən istifadənin genişləndirilməsi üçün əməkdaşlıqda maraqlıdır

Energetika naziri Pərviz Şahbazov Asiya İnkişaf Bankının (AİB) ölkə üzrə direktoru Kendis Makdeyqanla görüşüb.

Energetika sektorunda aparılan islahatlar, o cümlədən bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi istiqamətində həyata keçirilən layihələrdən danışan energetika naziri bu prosesdə beynəlxalq maliyyə qurumları, o cümlədən AİB-nin dəstəyinin vacibliyini qeyd edib. Bildirilib ki, təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi prioritetləri Prezident İlham Əliyev tərəfindən imzalanmış müvafiq Sərəncamla 2030-cu ilədək sosial-iqtisadi inkişafa dair müəyyən edilmiş milli prioritetlər sırasına daxil edilib. "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının Qanununun qüvvəyə mindiyi vurğulanıb. AİB ilə uzunmüddətli və səmərəli əməkdaşlıq əlaqələrinin bərpa olunan enerji mənbələrindən elektrik enerjisi istehsalının təşviq edilməsi üçün dəstək mexanizmlərini müəyyən edən və bu sahədə yaranan münasibətləri tənzimləyən qanunun imzalanmasından sonrakı inkişaf mərhələsində də görüləcək işlərə töhfə verəcəyinə inam ifadə olunub.

K.Makdeyqan isə öz növbəsində AİB-nin Azərbaycanda enerji sektorunda, o cümlədən "yaşıl enerji" sahəsində, xüsusi ilə işğaldan azad olunmuş ərazilərdə bərpa olunan enerjidən istifadənin genişləndirilməsi istiqamətində əməkdaşlığın inkişafına dəstəyin davam etdirilməsində maraqlı olduğunu diqqətə çatdırıb. Hazırda icra edilən "Üzən günəş panelləri sisteminin inkişafına dair biliklərin mübadiləsi və texniki yardım dəstəyi" adlı pilot layihə üzrə görülən işlər uğurlu əməkdaşlıq nümunəsi kimi qiymətləndirilib.

Vətən müharibəsi qəhrəmanları gəlir vergisindən azad olunub

Bu, Azərbaycan Respublikasının Vergi Məcəlləsində edilən dəyişiklikdə öz əksini tapıb.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Əmək Məcəlləsində və Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununu təsdiq edib.

RƏQƏMSAL MÜHİTDƏ TRANSAKSİYA XƏRCLƏRİ: İNDİKATOR FUNKSİYASI

(əvvəli ötən sayımızda)

Rəqəmsal mühitdə transaksiya xərclərinin qiymətləndirilməsinə metodiki yanaşmalar

Rəqəmsal iqtisadiyyatın formalaşdırılması prosesinin qiymətləndirilməsi üçün çoxsaylı göstəricilərdən istifadə olunur. Həmin göstəricilərə, ilk növbədə aşağıdakılar aid edilə bilər: elektron ticarət dövriyyəsi; internet-mağazaların sayı; kompüter istifadə edən insanların sayı; internetə müraciət imkanı olan istifadəçilərin sayı; əhalinin internet vərdişlərinin səviyyəsi; telekommunikasiyalara investisiyanın həcmi və s.

Rəqəmsal fəaliyyətin səmərəliliyinin müəyyən edilməsində istifadə olunan əsas göstəricilərdən (indikatorlarından) biri, artıq qeyd edildiyi kimi, transaksiya xərclərinin səviyyəsi və strukturudur. İqtisadiyyatın rəqəmsal sektorunda resursların və məhsulların mübadiləsi prosesində mülkiyyət hüququnun ötürülməsi ilə bağlı (başqa sözlə, bazarın fəaliyyətində meydana çıxan) transaksiya xərclərinin yaranmasına səbəb yuxarıda göstərildiyi kimi, ilk növbədə və başlıca olaraq natamam informasiya mühitidir.

Transaksiya xərclərinin səviyyəsi və strukturu iqtisadi sistemin parametrlərindən asılıdır. Bu tezis qərb müəlliflərinin tədqiqatları nəticəsində kifayət qədər sübut edilmişdir. Nəzəri və empirik tədqiqatlar onlara belə deməyə əsas vermişdir ki, transaksiya xərcləri öz aralarında müqavilə bağlayan iqtisadi agentlərin sayı ilə düz mütənasibdir. Eyni zamanda, iqtisadi davranış problemlərini araşdıran digər müəlliflər bu və ya digər fəaliyyət sahəsində təmərküzləşmə səviyyəsi və transaksiya xərclərinin səviyyəsi arasında əhəmiyyətli əlaqənin olduğunu göstərirlər. Başqa sözlə, onlar bağlanmış müqavilələrin və təyin edilmiş normaların sayı ilə transaksiya xərclərinin səviyyəsi arasında tərs mütənasiblik olduğunu da istisna etmirlər. Zənnimizcə, müqavilələrin əsaslandığı mükəmməl normaların sayı artdıqca, transaksiya xərclərinin səviyyəsində azalmanın baş verməsi ehtimalı heç də az olmayacaqdır.

İqtisadi əlaqələrini rəsmiləşdirən agentlərin sayı artdıqca transaksiya xərclərinin artması haqqında mülahizə təcrübi araşdırmaların nəticələrində özünü doğrultmuşdur. ABŞ iqtisadiyyatında transaksiya xərclərinin 1870-1970-ci illər üzrə dinamika təhlili göstərmişdir ki, həmin dövrdə transaksiya sektorunda istifadə edilən resursların məcmu milli məhsulda payı artaraq 23%-dən 45%-ə çatmışdır.

Transaksiya xərclərinin səviyyəsinin tənzimlənməsi, əslində təkcə həmin səviyyənin azaldılmasını deyil, iqtisadi fəaliyyətin bu və ya digər növləri üzrə məhdudiyyət şərtləri daxilində onun optimallaşdırılmasını nəzərdə tutmalıdır. Doğrudur, iqtisadi agentlərin virtual mühitdə fəaliyyət arealının genişlənməsi, ilk növbədə onların əlaqələrinin müxtəlifliyinin və sayının misli görünməmiş dərəcədə artmasında təzahür edir və belə vəziyyət rəqəmsal mühitin inkişafı hesabına transaksiya xərclərinin azaldılması məsələsini gündəlikdə saxlayır. Eyni zamanda, iqtisadi sistemin inkişafının onun əlaqə və münasibətlərinin mürəkkəbləşməsi ilə müşayiət olunduğunu da unutmaq olmaz. Bu və ya digər əməliyyatın aparılması (transaksiya) iqtisadi fəaliyyətin fasiləsiz davam etməsi üçün həyata keçirilir. Transaksiyalar informasiya da daxil olmaqla müxtəlif resursların hərəkətində təzahür edir. Həmin proseslərin idarə edilməsi qanunauyğunluqları, o cümlədən transaksiya xərclərinin idarə edilməsi (tənzimlənməsi) proseslərinə də aid edilə bilər. Bu baxımdan, rəqəmsal mühitdə transaksiya xərclərinin idarə edilməsi (tənzimlənməsi) prosesində müxtəlifliyin zəruriliyi qanununun fəaliyyəti mühitinə diqqət yetirilməlidir. Uilyam R. Eşbinin əsaslandırdığı "Müxtəlifliyin zəruriliyi qanunu"na görə, idarəedici təsirlərin müxtəlifliyi nə qədər çoxdursa və idarəetmənin birmənalı olmamasından itkilər nə qədər azdırsa, idarəetmə bir o qədər yaxşıdır.

İqtisadi fəaliyyətin hansı istiqamətində rəqəmsallaşmanın daha böyük gəlir gətirəcəyini müəyyən etmək üçün bu və ya digər sahədə transaksiya xərclərinin kəmiyyətcə qiymətləndirilməsi vacibdir. Belə ki, rəqəmsal iqtisadiyyatın səmərəliliyi müxtəlif təzahür formalarına baxmayaraq, ilk növbədə və başlıca olaraq transaksiya xərclərinə qənaətlə bağlıdır. Başqa sözlə, rəqəmsal iqtisadiyyatda transaksiya xərclərinin dinamika təhlili aparılmalı, bunun üçün isə həmin xərclər, artıq qeyd olunduğu kimi, kəmiyyətcə ölçülməlidir. Transaksiya xərclərinin kəmiyyətcə ölçülməsi üçün ciddi metodiki və informasiya çətinlikləri səbəbindən, hələ ki birmənalı qəbul edilən yanaşma yoxdur.

Rəqəmsal mühitdə informasiyanın assimmetriyasının azaldılması üçün, əvvəldə qeyd olunanlarla bərabər digər mühüm imkanlar vardır. Belə ki, istehsalçı və istehlakçı arasında birbaşa və açıq əlaqələrin yaradılması müqavilə bağlayan tərəflərin məlumatlandırılması səviyyəsini dəfələrlə yüksəldə bilər.

Transaksiya xərclərinin dəyişməsi istiqamətinin müəyyən edilməsi və həmin dəyişikliyin kəmiyyətcə qiymətləndirilməsi məsələlərinin həlli üçün yanaşmalar fərqlidir. Birinci halda, ordinalist yanaşma, ikinci halda isə kardinalist yanaşmalar tətbiq edilir. Bununla belə, kardinalist yanaşmalar, müvafiq mənbələrdə göstərildiyi kimi, transaksiya xərclərinin kəmiyyətcə ölçülməsi baxımından qarşıya qoyulan tələblərə tam cavab vermir. Hələ ki, transaksiya xərclərinin ölçülməsi üçün kardinalist deyil, dəyişiklikləri nisbi şəkildə qiymətləndirməyə imkan verən ordinalist yanaşmalardan daha çox istifadə olunur. Bir sözlə, transaksiya xərclərinin kəmiyyətcə ölçülməsinin metodiki bazasının ciddi təkmilləşdirməyə ehtiyacı vardır. Bu ehtiyacın ödənilməsində, zənnimizcə, rəqəmsal texnoloji mühitin imkanları getdikcə daha əhəmiyyətli rol oynayacaqdır.

Hazırda haqqında danışılan məsələnin həlli məqsədilə təcrübi müstəvidə yeni yanaşmalar təklif olunur və onların təkmilləşdirilməsi üçün az-çox dərəcədə uğurlu cəhdlər edilir. Bu baxımdan xərclərin transaksiya və transformasiya xərclərinin fərqləndirilməsinə və detallaşdırılmasına əsaslanan metodika diqqətəlayiqdir. Əlbəttə, transaksiya və transformasiya xərclərinin fərqləndirilməsi üzrə meyarların dəqiqləşdirilməsinə ehtiyac vardır. Məsələ ondadır ki, transformasiya xərclərini şərtləndirən texnologiya seçimi, öz növbəsində transaksiya xərclərinin strukrurunu müəyyən edir. Öz növbəsində transaksiya xərcləri istehsal texnologiyalarında alternativ seçimləri məhdudlaşdırır.

Transaksiya xərclərinin ölçülməsi və kəmiyyətcə qiymətləndirilməsi üçün onun struktur elementləri müəyyən edilməli, habelə həmin xərclərin təsnifatı dəqiqləşdirilməlidir. Təsnifat əlamətləri və təsnifatlar, məlum olduğu kimi, müxtəlif və çoxsaylıdır. Rəqəmsal iqtisadiyyat şəraitində lokal xarakterli transaksiya xərclərinin fərqləndirilməsi təcrübi baxımdan daha diqqətəlayiqdir. Müvafiq mənbələrdə lokal xarakterli transaksiya xərclərinin aşağıdakı təsnifatına daha çox üstünlük verilir: alternativ axtarış xərcləri; hesablamaların aparılması xərcləri; ölçmə xərcləri; müqavilə bağlanması xərcləri; spesifikasiya və mülkiyyət hüququnun müdafiəsi xərcləri; opportunist davranış xərcləri.

EX ANTE VƏ EX POST YANAŞMALARI

Transaksiya xərcləri, göstərildiyi kimi, əsasən alternativ axtarış, ölçmələr, hesablamaların aparılması, müqavilənin bağlanması, mülkiyyət hüququnun qorunması üzrə informasiya axtarışı ilə əlaqədar olaraq meydana gəlir. Odur ki, həmin xərcləri ölçmək üçün maddi və qeyri-maddi nemətlərin fiziki və dəyər xarakteristikalarını əks etdirən müxtəlif və çoxsaylı amillər nəzərə alınmalı və müqayisəli təhlil edilməlidir. Belə yanaşma transaksiya xərclərinin ölçülməsi məqsədi ilə, müvafiq mənbələrdə göstərildiyi kimi, aşağıdakı addımları atmağa imkan verir:

- alternativlərin aşkar edilməsi prosesində müqayisələrin aparılması;

- müqavilənin ex ante mərhələsinin dəqiqləşdirilməsi;

- ex post mərhələsində mülkiyyət hüququnun müdafiəsi (bütün müqavilə tərəflərinə - iştirakçılarına aiddir);

- kontragentlər tərəfindən göstərilən opportunist təzahürlərə qarşı durmaq.

Arayış üçün bildirək ki, ex ante yanaşması müqavilə bağlanana qədər meydana çıxan transaksiya xərclərini, ex post yanaşması isə müqavilə bağlanandan sonrakı transaksiya xərclərini əhatə edir. İndi isə, zənnimizcə, transaksiya xərclərinin yuxarıda qeyd olunan təsnifatında tərəf-müqabilin opportunist davranışı ilə əlaqədar meydana gələn transaksiya xərcləri üzərində bir qədər ətraflı dayanmaq yerinə düşər. Həmin xərclərin təbiəti iqtisadi agentlərin birinin digərləri hesabına normalara etina etmədən əlavə gəlir əldə etmək cəhdləri ilə əlaqədardır. Tərəf-müqabilin opportunist davranışı ilə əlaqədar meydana gələn transaksiya xərclərinin ölçülməsi baxımından, ilk növbədə qeyd edək ki, institusional mühitin xarakteristikalarını şərti olaraq müəyyən dövr üçün verilən kəmiyyətlər kimi qəbul etmək olar.

Opportunist davranışla bağlı transaksiya xərclərini də ex ante və ex post kimi iki qrupa bölürlər. Ümumilikdə opportunist davranışla bağlı transaksiya xərclərinin səviyyəsi, ilk növbədə qeyri-müəyyənliyin səviyyəsi, qarşılıqlı fəaliyyətin tezliyi və resursların spesifikliyi ilə əlaqədardır. Bəzi mənbələrdə, məhz bu amillər inteqrasiya proseslərinin tempi və miqyasını şərtləndirən amillər kimi təqdim olunur. Rəqəmsal iqtisadiyyat şəraitində iqtisadi təşkilat və ya inteqrasiya olunmuş struktur dedikdə, digər amillərlə yanaşı, transaksiya xərclərinin idarə edilməsində oxşar qaydalardan istifadə edən qarşılıqlı əlaqəli və qarşılıqlı fəaliyyət göstərən komponentlərdən ibarət qurum nəzərdə tutulur. İnteqrasiya proseslərinin genişlənməsi, xüsusilə rəqəmsal mühitdə transaksiya xərclərini əhəmiyyətli dərəcədə azaltmaq iqtidarındadır. Lakin bu prosesi yuxarıdan məhdudlaşdıran və bizim tədqiqatın predmetinə aid olmayan çoxsaylı amillərin mövcudluğunu da unutmaq olmaz.

Nəhayət, onu da qeyd edək ki, informasiya, maddi və təşkilati resursları birləşdirən informasiya biznes-qrupları bazarların sərhədlərini aşaraq, sövdələşən tərəflərin koordinasiya və motivləşdirmə ilə əlaqədar transaksiya xərclərinin azaldılması üçün əlverişli şərait yaradır.

Rəsul Balayev,
iqtisad üzrə elmlər doktoru,
Azərbaycan Dövlət İqtisad Universitetinin "Rəqəmsal texnologiyalar və tətbiqi informatika" kafedrasının professoru

Yaponiyada Azərbaycan Ticarət Evinin açılması məsələsi müzakirə olunub

Yaponiyanın Azərbaycandakı səfiri Cuniçi Vada Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunda (AZPROMO) olub.

AZPROMO-dan bildirilib ki, səfirlə görüşdə iqtisadiyyat nazirinin müşaviri Emil Məcidov Azərbaycan və Yaponiya arasında iqtisadi-ticarət, nəqliyyat-logistika və sair sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün böyük potensial olduğunu vurğulayıb, ölkəmizdə qeyri-neft sektorunun inkişafı, biznes mühitinin davamlı olaraq yaxşılaşdırılması istiqamətində görülən işlərdən danışıb, qeyri-neft sektoruna investisiyaların cəlb edilməsi üçün əlavə imkanlar yaradan Ələt İqtisadi Azad Zonası haqqında görüş iştirakçılarını məlumatlandırıb.

AZPROMO-nun rəhbəri vəzifəsini icra edən Yusif Abdullayev ixracın dəstəklənməsi istiqamətində qurum tərəfindən görülən işlər, "Made in Azerbaijan" brendinin təbliği üçün həyata keçirilən tədbirlər barədə məlumat verib.

Səfir C.Vada Azərbaycan və Yaponiya iqtisadi tərəfdaşlığının inkişafı istiqamətləri barədə danışıb, Yaponiyada Azərbaycan ticarət evinin təsis olunması ilə bağlı fikirlərini bildirib.

Görüşdə Azərbaycan və Yaponiya arasında qarşılıqlı investisiya və ticarətin artırılması məsələləri müzakirə olunub.

"ADY Express" Azərbaycan sementinin xaricə nəqlinə başlayıb

"Azərbaycan Dəmir Yolları" QSC-nin törəmə şirkəti "ADY Express" MMC ixrac rejimində növbəti növ yüklərin nəqlinə başlayıb. Bu dəfə şirkət tərəfindən "Holcim Azərbaycan" ASC-nin zavodunda istehsal olunan sementin dəmir yolu ilə Gürcüstana daşınmasına başlanılıb.

MMC-dən bildirilib ki, yüklər Qaradağ stansiyasında "ADY Express" tərəfindən təqdim edilən yarımvaqonlara yüklənərək, Gürcüstanın Kaspi yük stansiyasına çatdırılır. Yüklərin qonşu ölkəyə nəql edilməsi və vaqonların geri dönməsi ümumilikdə 6-7 günə həyata keçirilir. "ADY Express" bu yüklərin

daşınması üçün 50 vaqon ayırıb ki, hər ay 4 belə daşımanın həyata keçirilməsi nəzərdə tutulur.

Qeyd edək ki, "ADY Express" vasitəsilə hər ay "Holcim Azərbaycan" ASC-nin istehsal etdiyi 15 min ton sementin Gürcüstana nəql edilməsi planlaşdırılır.

Milli mətbuatımızın şərəfli YOLU

Milli mətbuat tariximizin səhifələrini vərəqlədikcə onun olduqca mürəkkəb, çətin, eyni zamanda, şərəfli bir yol keçdiyinin şahidi oluruq. Milli mətbuatımız 19-cu əsrin II yarısında Azərbaycan həyatının tarixi salnaməsini yaratmaqla öz inkişaf yoluna başladı. Çar Rusiyasının müstəmləkəsi olan Azərbaycanda hələ 19-cu əsrin I yarısında milli və eyni zamanda, ümumbəşəri idealların təbliğatçıları olmuş A.Bakıxanov, M.F.Axundov kimi böyük mütəfəkkirlər və ictimai xadimlər tərəqqinin, inkişafın yeganə yolunu xalqın maariflənməsində, biliyə, savada yiyələnməsində görürdülər. O dövrdə xalqın gözünü açа biləcək, ona doğru yol göstərə biləcək yeganə vasitə, həqiqət carçısı qəzet nəşri idi. Xalqı qəflət yuxusundan oyatmaq, ətrafda baş verənlərdən xəbərdar etmək, düzü düz, əyrini əyri olaraq insanlara çatdırmaq vaxtı artıq yetişmişdi. Məhz bu zaman - 1875-ci il iyulun 22-də böyük maarifçi ziyalımız, təbiətşünas alim Həsən bəy Zərdabi ana dilində ilk mətbuat orqanı olan "Əkinçi" qəzetini nəşr etdirdi və özündən əvvəlki tərəqqipərvər insanların mütərəqqi arzu və istəklərini gerçəkləşdirdi. Çar Rusiyasıının Cənubi Qafqazda müsəlman əhalisinin savadlanmasına hər cür maneə yaratdığı bir zamanda bu işin reallaşması özü böyük cəsarət, milli qeyrət, təəssübkeşlik tələb edirdi. 1875-ci ildə dünyaya göz açan "Əkinçi"nin səpdiyi maarifçilik toxumlarının cücərtiləri tezliklə öz bəhrəsini verməkdə idi.

Həsən bəy Zərdabinin və məsləkdaşlarının böyük çətinliklər və məhrumiyyətlərə sinə gərərək yaratdığı və inkişaf etdirdiyi "Əkinçi" qəzeti özündən sonra zəngin ənənələr qoydu. Onun ardı ilə "Ziyayi-Qafqaziyyə", "Kaspi", "Kəşkül", "Şərqi-rus", "Həyat", "İrşad", "Molla Nəsrəddin" və digər milli Azərbaycan nəşrləri yarandı. Həsən bəy Zərdabi, Mirzə Ələkbər Sabir, Seyid Əzim Şirvani, Cəlil Məmmədquluzadə, Əli Nəzmi, Ömər Faiq Nemanzadə, Məhəmməd ağa Şahtaxtılı, Abbas Səhhət, Əlimərdan bəy Topçubaşov, İsmayıl Qaspralı və başqa saf əqidə, parlaq fikir carçıları dövrün eybəcərliklərini ifşa edərək millətin oyanışına böyük əzmlə çalışdılar, milli mətbuat tarixindəki fəaliyyəti dövründə hər zaman elmi, maarifçiliyi təbliğ etdilər, xalqın milli dirçəlişinə, mədəni tərəqqisinə çalışdılar, insanları müasirliyə, yeniliyə çağırdılar. Azərbaycan milli mətbuatının keçdiyi şərəfli yolda tez-tez süni maneələr, böyük çətinliklər meydana çıxmış, zaman-zaman qəzetlərin bağlanması, maarifçilərə qarşı hücumlar, təhdidlər, böyük təzyiqlər olmuşdur. Lakin azadlıq mücahidləri amallarından, əqidələrindən dönməmişlər, xalqın milli şüurunun formalaşmasına, işıqlı arzularının bir zamanlar reallaşacağına inanaraq var qüvvə ilə mübarizə aparmışlar.

Azərbaycan milli mətbuatı Xalq Cümhuriyyəti dövründə istiqlal carçısı kimi imperializmə, müstəmləkəçilik siyasətinə qarşı mübarizədə xüsusilə böyük rol oynamışdır. Yeni qurulmuş Cümhuriyyətin ictimai-siyasi, iqtisadi, mədəni həyatının mənzərəsi məhz milli mətbuatda öz əksini tapırdı. Azərbaycan ziyalılarının ən görkəmli nümayəndələri mətbuat vasitəsilə haqq sözünü xalqa çatdırır, milli oyanışı, açıq mübarizə aparmağın yollarını göstərirdilər.

AXC dövründə milli ideologiyanın inkişafında Üzeyir Hacıbəylinin, Ceyhun Hacıbəylinin, Əhməd bəy Ağaoğlunun, Məhəmməd Əmin Rəsulzadənin, Nəsib bəy Yusifbəylinin, Əli bəy Hüseynzadənin, Məhəmməd Hadinin, Abdulla Şaiqin, Firidun bəy Köçərlinin, Əbdürrəhim bəy Haqverdiyevin, Süleyman Sani Axundovun və başqalarının böyük xidmətləri olmuşdur. Sovet hakimiyyəti illərində Azərbaycan mətbuatı keçmişin bir çox milli ənənələrini qoruyub saxlamış, yeniliklərə nail ola bilmiş, ölkənin ictimai-siyasi və mədəni həyatının ayrılmaz tərkib hissəsinə çevrilmişdir.

1991-ci ildə Azərbaycan müstəqillik qazandıqdan sonra milli mətbuatımız qarşısında yeni vəzifələr qoyuldu. Söz və məlumat azadlığı, hər kəsin sərbəst şəkildə informasiya almaq və yaymaq hüququ 1995-ci ildə qəbul edilmiş Konstitusiyada öz əksini tapdı. Ölkə rəhbərliyinin imzaladığı fərman və sərəncamlara əsasən mətbuatın maddi-texniki bazası, iqtisadi müstəqilliyi gücləndirildi, jurnalistlərin azad fəaliyyəti üçün əlverişli şəraitin təmin edilməsində böyük addımlar atıldı. Bu gün müstəqil ölkəmizin azad mətbuatının nümayəndələri qarşısında yeni çağırışlar var. Dünyada qloballaşma və virtuallaşma meyillərinin genişləndiyi bir vaxtda milli-mənəvi dəyərləri qoruyub saxlamaq və eyni zamanda, ümumbəşəri sosial tərəqqiyə qoşulmaq bugünkü mətbuatın və onun nümayəndələrinin üzərinə düşür.

Bu gün mətbuatda sözünü demək imkanına malik olan hər bir vətəndaş bu işin böyük məsuliyyətini, bu yükün ağırlığını dərk edərək, vətən qarşısında obyektiv, qərəzsiz və vicdanla xidmət etməlidir.

2020-ci ilin sentyabrında başlanan və 44 gün davam edən Vətən müharibəsində Azərbaycan mətbuatı da sanki müsəlləh əsgər kimi öz süngüsü ilə düşmənlə döyüşə atıldı. İstər yazılı, istərsə də digər informasiya vasitələrimizin cəsur nümayəndələri müharibənin ən qaynar nöqtələrindən baş verən hadisələr haqqında doğru-düzgün məlumatları vətəndaşlarımızın diqqətinə çatdırırdılar. Həyatlarını böyük risk altında qoyan cəsur jurnalistlər baş verən haqsızlıqların, müharibə həqiqətlərinin dünya ictimaiyyyətinə olduğu kimi çatdırılmasında da mühüm rol oynadılar. Onlar arasında vətən uğrunda şəhid olanları böyük yanğı və eyni zamanda, qürur hissi ilə anırıq.

Bu gün Azərbaycan mətbuatı müasir cəmiyyət quruculuğunda, milli həmrəyliyin möhkəmləndirilməsində, milli mənəvi dəyərlərin qorunması və təbliğində daha böyük səylər göstərməli, dünya mətbuatında bizə qarşı yönələn təxribatlara qarşı müxtəlif dillərdə vahid bir mövqedən çıxış etməli və dövlətimizin yürütdüyü düzgün siyasəti təbliğ edən azad, müstəqil mətbuat olduğunu göstərməlidir.

Aytən Səmədzadə,
"İqtisadiyyat" qəzetinin
baş redaktoru

TAP-ın genişləndirilməsi üzrə bazar araşdırması başlayıb

Azərbaycan təbii qazını Avropaya nəql edən TAP boru kəmərinin genişləndirilməsi üzrə bazar araşdırması başlayıb.

Bu barədə boru kəmərinin operatoru TAP AG şirkəti məlumat yayıb.

Bildirilir ki, TAP-ın bazar araşdırmasının ilkin mərhələsi iyulun 12-dən başlayıb. Bazar araşdırması 2 mərhələdə aparılacaq. TAP hazırda 3 genişləndirmə ssenarisi təklif edir: məhdud genişləndirmə (təqribən ildə 14,4 milyard kubmetr), qismən genişləndirmə (illik 17,1 milyard kubmetr) və tam genişləndirmə (ildə təxminən 20 milyard kubmetr).



Bakı-Tbilisi-Qars dəmir yolu ilə yükdaşımalarda rekord göstərici qeydə alınıb

Bu ilin 6 ayı ərzində Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu ilə 11 min 84 TEU konteyner daşınıb. Bu rəqəm 2020-ci il ərzində daşınan konteynerlərin ümumi sayına (11 min 748 TEU) yaxındır. "ADY Konteyner" MMC-dən bildirilib ki, BTQ ilə ilin əvvəlindən təyinat stansiyalarına 369 TEU idxal, 397 TEU ixrac, 10 min 318 TEU tranzit yükü çatdırılıb. Konteynerlərdəki yüklərə gəlincə, ən çox əlvan metallurgiya və kimya sənayesi məhsulları, avadanlıqlar, taxıl və taxıl məhsulları, tekstil, heyvan yemləri, tikinti materialları daşınıb.

Ən çox konteyner 3206 TEU olmaqla Qazaxıstan-Türkiyə marşrutu üzrə daşınıb. Əks istiqamətdə isə 552 TEU yük çatdırılıb. Çindən Türkiyəyə 2915 TEU, Türkmənistandan 912 TEU, Özbəkistandan isə 747 TEU yükdaşıma həyata keçirilib.

Azərbaycanda da aşkarlanan "Delta" ştammının əlamətləri nələrdir?

Ölkə xaricindən Azərbaycana gəlmiş şəxslərdən götürülmüş nümunələrin 31-də koronavirusun B.1.617 (Delta) variantı aşkarlanıb.

Hindistanda meydana gələn və sürətlə digər ölkələrə yayılan ştammın əlamətlərini təqdim edirik:

Araşdırmalara görə, "Delta" variantına yoluxmuş şəxslərdə adətən ilk olaraq mədə-bağırsaq traktı pozulur. Bu ştamma yoluxmuş pasiyentlər adətən, ishal və qarın ağrısından şikayətlənir. Qeyd edilən simptomlar, eyni zamanda, baş ağrısı, öskürək, halsızlıq və əzələ ağrısı ilə paralel özünü göstərə bilir. Qusma və hərarətin yüksəlməsi də Delta variantının simptomları arasındadır.

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, peyvənd olunanlar bu ştamma yoluxarsa, xəstəliyi yüngül keçirir. Bundan başqa, vaksin vurulanların "Delta" ştammı ilə xəstəxanaya yerləşdirilmə faizinin çox aşağı olduğu qeyd edilir. Üstəlik, peyvənd olunanların əksəriyyəti xəstəliyi asimptomatik keçirir.

Qeyd edək ki, "Delta" ştammı ilk dəfə ötən ilin oktyabrında Hindistanda aşkarlanıb. Ştammın "Delta Plus" variantının daha yoluxucu olduğu müəyyən edilib.

TAP boru kəməri ilə Avropaya 3 milyard kubmetrdən çox Azərbaycan təbii qazı göndərilib

"Trans-Adriatik" boru kəməri (TAP) ilə bu vaxtadək Avropaya 3 milyard kubmetrdən çox Azərbaycan təbii qazı nəql edilib.

Bu barədə boru kəmərinin operatoru TAP AG şirkəti məlumat yayıb.

TAP-ın idarəetmə direktoru Luca Schieppati deyib: "TAP-la qaz nəqlinə başlanılmasından təxminən 6 ay sonra Avropaya 3 milyard kubmetrdən çox qaz çatdırılıb. Boru kəmərinin hazırkı ötürücülük gücü ildə təxminən 10 milyard kubmetr olduğu halda, TAP ilkin gücünü iki dəfə artıraraq mərhələlərlə genişləndirə bilər. Bu, əlavə qaz mənbələrinin Avropa bazarlarına çata biləcəyi, xüsusən də Cənub-Şərqi Avropada daha təmiz enerji qarışığına keçidi dəstəkləyəcək".

Nazirlər Kabineti ictimai nəqliyyatın fəaliyyətinə dair qərar qəbul edib

Nazirlər Kabineti "Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə" 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarında dəyişiklik edib.

AZƏRTAC xəbər verir ki, Nazirlər Kabinetinin 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarında həftəsonları, o cümlədən 2021-ci il 17 iyul tarixində ictimai nəqliyyatda, həmçinin Bakı Metropolitenində sərnişindaşıma fəaliyyətinin dayandırılması müəyyən edilmişdir.

Məlum olduğu kimi, Nazirlər Kabinetinin 2021-ci il 1 iyul tarixli 194 nömrəli Qərarı ilə iş və istirahət günlərinin ardıcıllığını təmin etmək məqsədilə 2021-ci il 19 iyul iş günü ilə 17 iyul istirahət gününün yerləri dəyişdirilib və 18-21 iyul tarixləri qeyri-iş günü olaraq müəyyən edilib.

Bu baxımdan, 17 iyul tarixinin iş günü olduğunu nəzərə alaraq, Nazirlər Kabineti tərəfindən həmin tarixdə ictimai nəqliyyatda, həmçinin Bakı Metropolitenində sərnişindaşıma fəaliyyətinin bərpa olunması barədə qərar qəbul edilmişdir.

Digər dəyişikliyə əsasən, 18 iyul saat 00:00-dan 22 iyul saat 06:00-dək ictimai nəqliyyatda, həmçinin Bakı Metropolitenində sərnişindaşıma fəaliyyəti dayandırılacaq.

Vergiödəyicisi yeni bank hesabını necə aça bilər?

Yeni bank hesabının açılması üçün vergiödəyicisi vergi orqanına "Bankda hesab açılması məqsədilə şəhadətnamə-dublikatın alınması üçün ərizə" ilə müraciət etməlidir. Vergi orqanı isə bu ərizə əsasında 2 gündən gec olmayaraq şəhadətnamə-dublikatı vergiödəyicisinə verir və ya elektron qaydada bilavasitə müvafiq banka göndərir.

Gücləndirilmiş elektron imza (o cümlədən, "ASAN imza") və ya istifadəçi kodu, parol və şifrə olduqda şəhadətnamə-dublikat alınması üçün İnternet Vergi İdarəsi portalı üzərindən onlayn qaydada müraciət edilməsi mümkündür. Bu barədə ətraflı məlumatı portalın "Xidmətlər" bölməsindən, eyni zamanda, İnternet Vergi İdarəsinin "Yardım" bölməsindən əldə etmək mümkündür.

Həmçinin, bank hesabının açılması məqsədilə şəhadətnamə-dublikat vergiödəyicisinin büdcəyə vergilər, faizlər və maliyyə sanksiyaları üzrə borcu olmadıqda, 2 gündən gec olmayaraq verilir.

Mərkəzi Banka yeni səlahiyyət verilib

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu təsdiqləyib.

Sənədə əsasən, bank və ya bank olmayan kredit təşkilatı (kredit ittifaqı istisna olmaqla) tərəfindən mərkəzləşdirilmiş kredit reyestrinə və (və ya) kredit bürosuna "Banklar haqqında", "Bank olmayan kredit təşkilatları haqqında" və "Kredit büroları haqqında" Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulmuş məlumatların həmin qanunlarda müəyyən olunmuş qaydada təqdim edilməməsinə, yaxud tam, düzgün və ya vaxtında təqdim edilməməsinə görə – vəzifəli şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə, hüquqi şəxslər on min manatdan on iki min manatadək məbləğdə cərimə ediləcək.

Kredit ittifaqı tərəfindən mərkəzləşdirilmiş kredit reyestrinə və (və ya) kredit bürosuna "Kredit ittifaqları haqqında" və "Kredit büroları haqqında" Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulmuş məlumatların həmin qanunlarda müəyyən olunmuş qaydada təqdim edilməməsinə, yaxud tam, düzgün və ya vaxtında təqdim edilməməsinə görə – vəzifəli şəxslər yüz əlli manatdan iki yüz manatadək məbləğdə, hüquqi şəxslər min manatdan min iki yüz manatadək məbləğdə cərimə ediləcək.

İnsanları mərhəmətə, həmrəyliyə və qardaşlığa dəvət edən bayram

Sən də Rəbbin üçün namaz qıl və qurban kəs!
(Kövsər surəsi 2-ci ayə)

İnsanları halallığa, paklığa səsləyən Qurban bayramının çox maraqlı tarixi və şərtləri var. Əslində, qurban ayini İslamdan çox-çox əvvəllər, müxtəlif ölkələrdə müxtəlif cür icra olunurdu. Məsələn, qədim dövrlərdə qurban verilənlərin əksəriyyəti hərbi əsirlər olmuşdur. Çünki müharibədə ələ keçirilən əsirləri saxlamaq əlverişli deyildi, onlar izafi məhsul yaratmır, xüsusi gözətçi tələb edir və başqa əlavə qayğılar doğururdular. Buna görə də onların qurban verilməsi ən əlverişli və müqəddəs əməliyyat sayılırdı.

İslam dinində Qurban bayramı böyük bayram (eyd əl-kəbir) adlanır. Bayram günü məscidlərdə xüsusi bayram namazı qılınır, dəvə, mal-qara, davar qurban kəsilir, vəfat etmiş əziz adamların xatirəsini yad etmək əlaməti olaraq evlərdə və qəbiristanlıqlarda dua oxunur, ehsan verilir.

Qurban bayramı haqqında Qurani-Kərimdə deyilir ki, **"Allah Beytülhəram olan Kəbəni haram ayı (zilhiccəni), Kəbəyə gətirilən boyunları bağsız və bağlı (boyunlarına nişan taxılmış və taxılmamış) qurbanları insanların (dini və dünyəvi işlərinin) düzəlib sahmana düşməsi üçün bir yol müəyyən etdi".** Şəriətə görə, qurbanlıq heyvanın qüsuru olmamalı və onu kəsən bıçağa xüsusi qurban duası oxunmalıdır. Nəsil artımında dişi heyvanların müstəsna rolu olduğuna görə qurbanlıq heyvanın erkək olması daha üstün tutulur. Qurbanlıq qoçun yaşına gəlincə, bu, ən azı altı aylıq heyvan olmalıdır. Lakin dana, yaxud dəvənin bir yaşı tamam olsa, daha yaxşıdır. Bir qurbanlıq heyvan yeddi dindarın adından kəsilə bilər, lakin fərdi qurban daha savablı sayılır.

Qurban bayramı müsəlman ruhaniləri tərəfindən İbrahim peyğəmbərin öz oğlu İsmayılı Allahın şərəfinə qurban kəsmək niyyətini bildirən hadisə ilə əlaqələndirilir. Allah öz sevimlisi İbrahim peyğəmbərin sadiqliyini sınamaq üçün ondan yeganə oğlu İsmayılı qurban kəsməyi tələb edir və İbrahim peyğəmbər gözünü qırpmadan oğlunu yerə yıxıb başını kəsərkən, Allahın göndərdiyi mələk Cəbrayıl göydən enib onun əlini saxlayıb, Allahın İbrahimdən razı qaldığını bildirib və oğlu İsmayılın əvəzinə Tanrının göndərdiyi qoyunu kəsməyi təklif edir.

"Rəbbin üçün namaz qıl və qurban kəs!",
"De ki: "Mənim namazım da, kəsdiyim qurban da, həyatım və ölümüm də aləmlərin Rəbbi - ALLAH üçündür".

Buna görə də Qurban bayramında kəsilən qurbana "İsmayıl qurbanı" da deyirlər. Çox sevdiyi balasını Allah yolunda qurban verməyə hazır olması Peyğəmbərin Allah qarşısında imanının, səmimiliyinin və mütiliyinin bariz sübutudur. Odur ki, din tarixində dərin iz salmış bu hadisə Allaha inamın, dərin etiqadın nümunəsidir. Bu hadisə onu göstərir ki, insanlar Allahı sonsuz imanla sevməli və öz sevgilərində bu cür səmimi olmalıdırlar. **Çətin anlarda Allahı yada salıb, yaxşı zamanlarda Onu unutmaq möminə yaraşan hərəkət deyil!** Bu andan etibarən dindarlar hər il ev heyvanlarından birini Allahın şərəfinə kəsib, Ona öz itaətkarlıqlarını bildirirlər. **Bu bayramın əsas mahiyyəti Allah yolunda kəsilmiş heyvanın ətini Allahın imkansız bəndələri ilə bölüşmək, onları sevindirmək və sevincinə şərik olmaqdır.** Beləliklə, bu bayramın və ayinin də əsasında, orucluqda olduğu kimi, xeyirxahlıq, paklıq və Allaha inam və sevgi durur.

Qurbanlığın ən gözəl xususiyyətlərindən biri odur ki, burada din, məzhəb ayrı-seçkiliyinə yol verilmir. Bu bayramda istənilən dindən olan yetimin, kimsəsizin və yoxsulun haqqı var ki, varlının imkanından bəhrələnsin, adi günlərdə yeyə bilmədiyi qurbanlıq ətindən dadsın. Qurbanlıq o deməkdir ki, insanlar Allahın xoşuna gələcək bir əməli icra edirlər.

Qurbanlığın şərtlərindən biri də odur ki, qurban kəsmək yalnız buna imkanı olan varlı adamların boynunda haqdır. İmkanı olmayan adama isə qurban kəsmək vacib deyil. Qurban kəsmək üçün borc pula heyvan almaq İslamda təqdir olunmur, çünki bu bayramın əsas mahiyyəti zənginlərlə imkansızların birliyi, qardaşlığıdır.

Qurban kəsildikdə müstəhəb (bəyənilən) əməllər:

- qurbanı qibləyə tərəf döndərmək;
- qurbanı səliqəli və rahat şəkildə kəsmək;
- dəvəni ayaq üstə, öküz və qoçu isə uzanan yerdə kəsmək;
- bıçağı kəsilən heyvana göstərməmək;
- "bismillah" dedikdən sonra "ALLAHU Əkbər" demək;
- qurbanın qəbul olunması üçün dua etmək;
- qurbanın kim tərəfindən kəsildiyini dillə tələffüz etmək;

Qurban kəsildikdə məkruh (bəyənilməyən) əməllər:

- bıçağı heyvana göstərmək və ya onun gözünün qabağında itiləmək;
- bir heyvanın gözünün qabağında o birisini kəsmək;
- kəsilmiş heyvanın canı çıxmamış hər hansı bir əzasını sındırmaq və s. kimi əməllərlə heyvana əziyyət vermək;

Bu bayramda hamı sevinməlidir: varlılar Allaha xoş gedən əməli icra etdikləri və kasıbları sevindirdiklərinə görə, kasıblar isə dünya nemətindən əldə etdiklərinə və başqalarından gördükləri mərhəmətə və qayğıya görə.

İslam dünyasının ən müqəddəs bayramlarından sayılan Qurban bayramı bütün müsəlman ölkələrində təmtəraqla qeyd olunur.

Azərbaycan müstəqillik əldə etdikdən sonra Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli "Azərbaycan Respublikasının bayramları haqqında" Qanuna əsasən Qurban bayramı ölkəmizdə də dövlət səviyyəsində bayram edilir.

Hazırladı: LAMİYƏ

Dünyadakı SES-lərin gücü 2030-cu il üçün 17% artacaq



Dünyada su elektrik stansiyaların (SES) gücü 2030-cu il üçün 1 555 QVt-ı aşacaq ki, bu da 2020-ci ilin göstəricisi ilə müqayisədə 230 QVt və ya 17% çoxdur.

Beynəlxalq Enerji Agentliyinə (IEA) istinadən verilən məlumata görə, 2020-ci ildə dünyadakı SES-lərin gücü 1 330 QVt təşkil edib.

Buna baxmayaraq, proqnoza əsasən, 2021-2030-cu illərdə SES-lərin artım tempində 2010-2020-ci illərin göstəricisi ilə müqayisədə 23% azalma müşahidə olunacaq.

Qeyd olunur ki, bu azalma Çin, Latın Amerikası və Avropada inkişaf templərin yavaşlamasının nəticəsi olacaq, lakin Asiya-Sakit Okean bölgəsi, Afrika və Yaxın Şərqdə artım templərinin sürətlənməsi hesabına qismən kompensasiya olunacaq.

Qlobal neft tələbatı sutkada 4,6 milyon barel artacaq

İlin ikinci yarısında qlobal neft tələbatının gündəlik 4,6 milyon barel artacağı gözlənilir.

Bu barədə Beynəlxalq Enerji Agentliyinin (IEA) neft bazarına dair aylıq hesabatında deyilir.

IEA-ya görə, qlobal iqtisadiyyatda güclü böyümə, yeni növ koronavirus epidemiyasına qarşı peyvənd səylərinin sürətləndirilməsi və məhdudiyyətlərin yumşaldılması neft tələbatında canlanmanın hərəkətverici qüvvəsi olacaq. Qlobal iqtisadiyyatda müsbət proqnozun bu ilin qalan hissəsində və 2022-ci ildə də davam edəcəyi gözlənilir. Xüsusən Avropada epidemiya ilə bağlı məhdudiyyətlərin yumşaldılmasının təsiri ilə qlobal neft tələbatının ilin ikinci yarısında birinci yarımillə müqayisədə gündəlik 4,6 milyon barel artacağı planlaşdırılır.

Bununla birlikdə, bəzi ölkələrdə COVID-19-a yoluxma hallarının artması qlobal neft tələbatı üçün mənfi risk yaratmaqda davam edəcək.

Rumıniya 2022-ci ilin iyulunda Azərbaycandan təbii qaz alacaq



2022-ci ilin iyuluna qədər Bolqarıstan-Yunanıstan İnterkonnektoru (İnterconnector Greece – Bulgaria: IGB) ilə Azərbaycan təbii qazı Rumıniyaya çatdırılacaq.

Bunu Rumınıyanın Energetika naziri Vircil Popesku bildirib.

Onun sözlərinə görə, Rumıniya üçün Azərbaycandan nəql ediləcək təbii qaza maraq, prinsipcə, sonda Qara dəniz şelfindəki layihələr üzrə əməliyyatların başlayacağı ilə bağlı nikbin ssenari çərçivəsində nəqliyyat haqları ilə əlaqəli olmalıdır. BRUA kəmərinin hələ ki boş qalmasına baxmayaraq, Rumıniyadakı qaz boru kəmərlərinin operatoru olan "Transgaz" şirkəti artıq yerli istehlakçılardan bu boru kəməri ilə çəkilən xərclərə görə ödəniş alır. Qeyd edək ki, Azərbaycan təbii qazının Rumıniyaya BRUA kəməri ilə nəql edilməsi gözlənilir.

V.Popesku bildirib ki, Sofiyada keçirilən Üç Dəniz Təşəbbüsü Sammitində iştirakı çərçivəsində Bolqarıstandakı həmkarı, bu ökənin Energetika naziri Andrey Jivkov ilə işgüzar görüşü olub. O bildirib ki, danışıqlarda iki dövlət arasında ikitərəfli münasibətləri gücləndirmək üçün gələcək fəaliyyətlər müzakirə edilib. Eyni zamanda, yenilənə bilən enerji (hidro və dəniz küləyi) sahəsindəki gələcək investisiya layihələrində elektrik enerjisi ötürülməsi üçün əlaqənin artması haqqında müzakirələr aparılıb.

Nazir bildirib ki, Bolqarıstan-Yunanıstan İnterkonnektoru 2022-ci ilin iyul ayına qədər istifadəyə veriləcək: "Yunan limanlarından Azərbaycan qazının və mayeləşdirilmiş qazın BRUA-ya çatması üçün təminat artıq alınıb".

Qeyd olunur ki, Rumıniya-Bolqarıstan interkonnektoru, eləcə də BRUA layihəsi Xəzər və Aralıq dənizlərindən, Yaxın Şərq və ya Mərkəzi Asiyadan təbii qaz mənbələrinin Mərkəzi və Qərbi Avropa bazarlarına inteqrasiyasını təmin edəcək.

İtaliyada kəndə köçənlərə pul təklif olunur

İtaliyanın cənubundakı Kalabriya regionunundakı kiçik qəsəbələrə köçmək istəyənlərə 28 min avroyadək vəsait təklif edir.

Dəniz kənarında və dağların yaxınlığında füsunkar gözəlliyə malik olan həmin tarixi qəsəbələrə köçənlər sözügedən vəsaiti almaq müqabilində kiçik sahibkarlıqla məşğul olmalıdır.

Qeyd olunub ki, şərtlərə uyğun olaraq həmin işə ya sıfırdan, ya da qəsəbələrdən verilən peşə sahiblərilə bağlı təklifə əsasən başlamaq olar.

Dünyada COVID-19 infeksiyasına yoluxanların sayı 188 milyonu ötüb

Dünyada yeni növ koronavirusa (COVID-19) yoluxanların sayı son sutka ərzində 390 mindən çox artıb.

Ötən sutka ərzində 390 min 26 nəfər yeni koronavirusa yoluxub, 6 min 387 nəfər isə dünyasını dəyişib. Bununla da yoluxanların ümumi sayı 188 milyon 51 min 747, ölənlər isə 4 milyon 55 min 551 nəfərə çatıb.

Dünyada bu vaxtadək ən çox yoluxma halı ABŞ (34,7 milyon), Hindistan (30,9 milyon), Braziliya (19,1 milyon), Fransa (5,8 milyon), Rusiya (5,8 milyon) və Türkiyədə (5,4 milyon) qeydə alınıb.

Xatırladaq ki, koronavirus infeksiyası 2019-cu ilin dekabrında Çinin Uhan şəhərində yayılmağa başlayıb. Çin həmin ilin sonunda ÜST-ü ölkədə naməlum virusun yayılması barədə məlumatlandırıb. ÜST ötən il fevralın 11-də infeksiyanın adını COVID-19 qoyub, 1 ay sonra - martın 11-də isə koronavirusu pandemiya elan edib.

ALLAH RƏHMƏT ELƏSİN

Akademik Ziyad Səmədzadə Azərbaycan Kooperasiya Universitetinin prorektoru
ELSEVƏR KƏRİMLİNİN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Kooperasiya Universitetinin rektoru, professor
Eldar Quliyev Universitetin prorektoru
ELSEVƏR KƏRİMLİNİN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professor Bəyalı Ataşov və professor Gəncəli Gənciyev Azərbaycan
Kooperasiya Universitetinin prorektoru
ELSEVƏR KƏRİMLİNİN
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Professor Elşən Hacızadə, professor Arif Hüseynov və professor Rəsul Balayev
Azərbaycan Kooperasiya Universitetinin prorektoru
ELSEVƏR KƏRİMLİNİN
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Tahir Şükürov və Anar Əzizov Azərbaycan Kooperasiya Universitetinin prorektoru
ELSEVƏR KƏRİMLİNİN
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan İqtisadçılar İttifaqı və "İqtisadiyyat" qəzetinin kollektivi
Azərbaycan Kooperasiya Universitetinin prorektoru
ELSEVƏR KƏRİMLİNİN
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Akif Musayev, Vahid Novruzov, Ədalət Muradov, Qüdrət Kərimov, Elşən Hacızadə, Süleyman Qasımov, Mirqasım Vahabov, Bəyalı Ataşov, Məiş Əhmədov, Aydın Hüseynov, Rəsul Balayev, Müşfiq Atakişiyev, Zahid Məmmədov, Aytən Səmədzadə, Elşad Səmədzadə

Dizayner:
Lamiyə NƏBİYEVA

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500